# Avropa Azərbaycanla strateji əməkdaşlığın inkişafında maraqlıdır

**Prezident İlham Əliyevin yaxın günlərdə İtaliyaya işgüzar səfəri yalnız ikitərəfli əlaqələrin inkişaf etdirilməsi baxımından əlamətdar olmadı. Bu səfər həm də Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki aparıcı rolunun, qlobal səviyyədə yüksək nüfuzunun növbəti təsdiqinə çevrildi. İtaliyanın Avropa İttifaqının ən böyük və aparıcı dövlətlərindən biri olduğunu nəzərə alsaq, bu səfəri həm də Aİ üzvlərinin respublikamıza olan münasibəti kimi dəyərləndirə bilərik.**

## Azərbaycandan təbii qaz alan 10 dövlətdən 7-si Aİ üzvüdür

İtaliyada keçirilən Çernobbio Beynəlxalq Forumunda jurnalistlərin suallarını cavablandıran Macarıstanın Baş naziri Viktor Orbanın söylədiyi fikirlər də deyilənləri təsdiq edir. Belə ki, Viktor Orban Azərbaycanı Avropa İttifaqı üçün strateji əhəmiyyətli ölkə adlandırıb. "Azərbaycan Avropa ilə sıx əməkdaşlıq edir. Hazırda Azərbaycan strateji əhəmiyyətə malik ölkəyə çevrilib. Ona görə də Avropa Şurasının sədri kimi, biz Azərbaycanla strateji əməkdaşlığın inkişafını dəstəkləyirik", - deyə Macarıstan hökumətinin başçısı deyib.

Viktor Orbanın söylədiyi fikirlər real arqumentlərə, reallıqlara söykənir və bu sözlərin daşıdığı həqiqət yükünü dəqiqləşdirmək üçün xüsusi baş sındırmağa ehtiyac yoxdur. Öncə onu qeyd edək ki, Azərbaycanın yerləşdiyi regionun aparıcı dövləti və lideri olması uzun illərdir ki, qlobal səviyyədə öz təsdiqini tapan gerçəklikdir. Respublikamızın bütün sahələrdə müstəqil siyasət yürütməsi, qlobal məsələlərdə özünün aydın və konkret mövqeyinin olması, dünyada sülhə və təhlükəsizliyə mühüm töhfələr verməsi beynəlxalq miqyasda qəbul edilən reallıqlardır.

Azərbaycanın beynəlxalq tranzit qovşağına çevrilməsi, Bakı-Tbilisi-Ceyhan neft, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti və "Cənub qaz dəhlizi" kimi nəhəng layihələrin reallaşmasına nail olması da dünyanın diqqətində olan hadisələrdir. Bunları Avropa dövlətləri, o cümlədən Aİ üzvləri də görürlər. Təsadüfi deyil ki, Aİ-yə üzv dövlətlərin 10-u ilə Azərbaycan arasında strateji tərəfdaşlıq adlanan sənədlər və bəyannamələr imzalanıb.



Azərbaycan həm də Avropa ölkələrinin enerji təhlükəsizliyinin təmin olunmasına dəstək verən dövlətdir. Azərbaycandan təbii qaz alan dövlətlərdən 7-si Aİ üzvüdür. "Hazırda 10 ölkə Azərbaycandan qaz alır və onlardan 7-si Avropa İttifaqının üzvüdür. Bu səbəbdən Avropa Komissiyası Azərbaycanı ümumavropa qaz təchizatçısı və etibarlı tərəfdaş adlandırır", - deyə Prezident İlham Əliyev bildirib.

## Avropada Azərbaycanın etibarlı tərəfdaş olduğunu yaxşı bilirlər

Onu da qeyd edək ki, Azərbaycanın enerji marşrutlarının daha da genişləndirilməsi ilə bağlı təşəbbüsləri həmişə alternativ nəql imkanlarının axtarışında olan Avropa İttifaqının xüsusilə diqqət yetirdiyi məsələlərdən biridir. 2022-ci il iyul ayının 18-də Bakıda "Azərbaycan Respublikası ilə Avropa Komissiyası tərəfindən təmsil olunan Avropa İttifaqı arasında enerji sahəsində Strateji Tərəfdaşlığa dair Anlaşma Memorandumu"nun imzalanması da göstərir ki, Azərbaycan Aİ üçün, Viktor Orbanın təbirincə desək, strateji əhəmiyyətli ölkədir.

Azərbaycan Avropaya doğru həm də elektrik enerjisi körpüsü salır. Xatırladaq ki, 2022-ci ilin dekabrında Rumıniyanın paytaxtı Buxarestdə "Azərbaycan Respublikası, Gürcüstan, Rumıniya və Macarıstan hökumətləri arasında "yaşıl enerji"nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Saziş" imzalanıb. Tezliklə Azərbaycan Avropaya elekrtik enerjisi də ixrac edəcək.

Son illərdə Avropa enerjiyə tarixdə görünməmiş dərəcədə ehtiyac duyur. Bununla bağlı müzakirələr aparan Aİ-yə üzv dövlətlər Azərbaycanın bu sahədəki imkanlarını və eyni zamanda ölkəmizin etibarlı tərəfdaş olduğunu yaxşı bilirlər. Ona görə Macarıstanın Baş naziri Viktor Orbanın dediyi kimi, Avropa Azərbaycanla strateji əməkdaşlığın inkişafını dəstəkləyir.

*Rəşad CƏFƏRLİ,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.- 10 sentyabr (№196).- S.6.